Şəlalə Məmmədzaid qızı Bünyadzadə [9]

MODAL SÖZLƏRİN XARAKTERİK XÜSUSİYYƏTLƏRİ

Dilçilikdə özünəxas xüsusiyyəti ilə diqqət çəkən köməkçi nitq hissələrindən biri də modal sözlərdir. Bu nitq hissəsinə aid olan sözlər müasir Azərbaycan və Türkiyə türkcələrində ifadə etdikləri modallığa, işlənmə xüsusiyyətlərinə görə digər köməkçi nitq hissələrindən fərqlənir. Modal sözlər digər köməkçi nitq hissələrindən sonra araşdırılmağa başlanılmışdır. Ancaq bu kateqoriya ilə əlaqədar xeyli tədqiqat işləri yazılmışdır. Modal sözlər barədə türkologiyada, xüsusilə, Azərbaycan dilçiliyində hərtərəfli elmi araşdırmalar mövcuddur.

Azərbaycan dilçiliyində modal sözlər barəsində ilk dəfə A.Aslanov bəhs etmişdir. O, "Müasir Azərbaycan dilində modal sözlər" adlı məqaləsində göstərmişdir ki, Azərbaycan dilinin sintaksisində ara söz kimi izah edilən sözlər haqqında morfologiyada bəhs edilməmiş, onlar səhv olaraq müxtəlif nitq hissələri içərisində verilmişdir [1, s. 170]. Z.Əlizadə "Müasir Azərbaycan dilində modal sözlər" adlı monoqrafiyasında dilçiliyimizdə modal sözlər barəsində daha geniş və ətraflı məlumatlar təqdim etmişdir.

Modal sözlərdən müasir Türkiyə dilçiliyində ayrıca bir nitq hissəsi olaraq bəhs edilmir. Bu bu qrupa aid bəzi sözlər isə əsasən bağlayıcıların içərisində verilir. "Müasir türk dilində köməkçi nitq hissələri" [8] adlı monoqrafiyasında R.Rüstəmov modal sözləri bir qədər ətraflı şəkildə araşdırmışdır.

Modal sözləri və onların köməkçi nitq hissələri içərisində mövqeyini öyrənmək üçün ilk olaraq modallıq kateqoriyasının nə olduğunu öyrənmək lazım gəlir. Modallıq fəlsəfi kateqoriyadır. O, dilçiliyə məntiq elmindən daxil olmuşdur. Bir sıra mütəxəssislər tərəfindən modallıq cümlədəki məzmunun gerçəkliyə münasibəti fonunda izah olunur. Müasir Azərbaycan və türk dillərində modallığın əsas qrammatik göstəriciləri kimi intonasiya, feilin şəkilləri, söz sırası və modal sözlər qeyd edilir.

Modallığın ifadə vasitələrindən biri və elə birincisi modal sözlərdir. Modal sözlər sintaktik müstəvidə, əsasən, ara söz funksiyasını yerinə yetirir, cümlənin məzmunu ilə həmahəng olur və modallığın yaranmasına xidmət göstərir. Modal sözlər danışanın söylədiyi fikrə, obyektiv reallığa münasibət bildirən sözlərdir [8, s. 382]. Dilçiliyimizdə modal sözlərin aşağıdakı fərqli xüsusiyyətləri göstərilir:

1. Obyektiv gerçəkliyə modal münasibət bildirir
2. Əksəri ilkin məna izlərini saxlaya bilmişdir
3. Sintaksisdə ara söz funksiyası daşıyır
4. Digər köməkçi nitq hissələri ilə müqayisədə qrammatik əlaqədə iştirak etmir və s.

Modal sözlərin tərkibinə daxil edilən vahidlərin əksəriyyətinin nə dərəcədə bu kateqoriyaya aid olub-olmaması şübhəlidir. Məlum olduğu kimi, modal sözlər cümlədə ara söz funksiyasında işlənir. Unutmaq olmaz ki, cümlədə ara söz vəzifəsində işlənən hər sözü və ya söz birləşməsini modal söz hesab etmək olmaz. Bütün modal sözlər ara söz funksiyasını daşıyır. Lakin bütün ara sözlər modal söz deyil. Bu səbəbdən də bütün ara sözlərin cümlələrdə yaratdığı modallığı morfoloji göstərici kimi modal sözlərlə əlaqələndirmək doğru hesab olunmur. Əgər biz konkret hansısa bir nitq hissəsindən danışırıqsa, yadda saxlamalıyıq ki, o kateqoriyaya daxil olan sözlər məhz həmin qrupu xarakterizə edir. Ona görə də modal sözlər deyərkən, yalnız müəyyən fonetik tərkibdən ibarət bir söz nəzərdə tutulmalıdır. Bu da o deməkdir ki, iki ayrı və yaxud eyni nitq hissəsinə məxsus sözlərin birləşib (məs: sözün düzü, elə bil, daha doğrusu) ara söz kimi işlənməsi onların heç də modal söz olması demək deyil. Məsələn, yəqin, əlbəttə morfemləri modal sözlərdir, cümlədə ara söz funksiyasını yerinə yetirirlər. Ancaq güman ki, sözsüz, deyəsən morfemləri ara söz kimi işlənsələr də, morfoloji mənsubiyyətlərinə görə isim, sifət və feilə uyğun gəlirlər.

Modal sözlər dilin inkişafının sonrakı dövrünün məhsuludur. Ona görə də həmin situasiyada işlənən sözlərdə yaranmış ikili xarakter - leksik-qrammatik xüsusiyyət də tam komplekslaşməmişdir. Bu səbəbdən də dilçiliyimizdə tez-tez əsas nitq hissələrinə aid edilən əksər sözlərin bu kateqoriya içərisində də təqdim edilməsi kimi məqamlara təsadüf edilir. Modal sözlərin tərkibi son dövrlərdə yerli-yersiz olaraq lüğəvi mənalı sözlər hesabına genişləndirilmişdir. Bu da nəticədə modal sözlərin xüsusiyyətlərinin köməkçi nitq hissələrinə aid edilən meyarlar çərçivəsindən kənara çıxmasına səbəb olmuşdur.

Modal sözləri inkişafının xarakterinə görə iki qrupa ayırmaq olar: 1) Sabitləşmiş modal sözlər; 2) qeyri-sabit modal sözlər.

I. Sabit modal sözlər. Bunların modal söz kimi inkişafi başa çatmış və heç bir nitq hissəsi ilə ortaq münasibəti yoxdur. Bu qrupa yəqin ki, bəlkə də, sanki, əlbəttə, əlbəttə ki və s. modal sözlər daxildir.

II. Qeyri-sabit modal sözlər. Bunların əksəriyyəti həm əsas nitq hissəsinə daxil olan sözlər, həm də modal sözlər kimi işlənir. Bu qrupa görünür, deyəsən, nəhayət, sözsüz, xülasə, şübhəsiz, birincisi və s. sözlər daxildir.

Müasir dilçilərin bəziləri modal sözlərin xüsusiyyətlərini göstərərkən, onları nidalarla müqayisə edirlər. Bizcə, nidalarla modal sözləri xüsusi nitq hissəsi kimi bir qrupda təqdim etmək doğru deyildir. Birinci səbəb odur ki, dildə lüğəvi mənası olan və lüğəvi mənası olmayan sözlər var. Dilimizin əsasını lüğəvi mənalı sözlər təşkil edir. Lüğəvi mənası olmayan sözlər isə dilin yardımçı vasitələri olduğundan onları köməkçi sözlər adlandırırıq. İkincisi isə modal sözlərin nidalarla oxşarlığını qabartmaq modal sözlərin cümlədəki roluna diqqətsiz yanaşmaqdan irəli gəlir. C.Cəfərov yazır: "Modal sözlər nidalar kimi cümlənin əsas üzvləri ilə məzmunca bağlanır və cümlənin əsas əlamətlərindən birini təşkil edir və intonasiya baxımından cümlənin digər üzvlərindən ayrılır. Nidalar sintaktik

[9] Bakı Dövlət Universiteti, İngilis dili (təbiət fakültələri üzrə) kafedrasının baş müəllimi

cəhətdən emosional sözlər vəzifəsi daşıdığı kimi, modal sözlər də ara söz vəzifəsində işlənir. Bütün bu xüsusiyyətlərinə görə modal sözləri də xüsusi nitq hissələrinə aid etmək olar [3, s. 145]. Emosionallıq nidaların morfoloji xarakteridir. Ş.Hüseynov yazır ki, modal sözlərin qrammatik vəzifəsi təkcə morfoloji funksiya ilə məhdudlaşmır. O, qeyd edir ki, modal sözlər dilin sintaktik quruluşunda da müəyyən əhəmiyyət kəsb edir: bu sözlər həm tabesiz, həm də tabeli mürəkkəb cümlələrin tərəflərini bağlayan vasitə kimi çıxış edir və sintaktik quruluşun inkişafında bəzi konstruksiyaların transformasiyaya uğramasına səbəb olur [5, s. 59].

Müasir türk dilçiliyində modal sözlərə aid vahidlərin bağlayıcıların içərisində təqdim edilməsi onların qrammatik əlaqədəki roluna da düzgün diqqət yetirilməsindən irəli gəlir. Modal sözlər köməkçi nitq hissəsidir və onun qrammatik əlaqədəki rolunu inkar etmək doğru hesab olunmur.

Modal sözlər barəsində ilk geniş monoqrafiya müəllifi olan Z.Əlizadə öz əsərində ara sözlərlə modal sözlərin sərhədini dəqiq müəyyənləşdirə bilmir.Onun gəldiyi bəzi qənaətlər elmi cəhətdən özünü doğrultmur.

F.Zeynalov əsas nitq hissələrindən köməkçi nitq hissələrinə keçidin modal sözlərdə özünü daha qabarıq göstərdiyini qeyd edirdi. Müəllif qeyd edir ki, modal sözlərin əksəriyyəti əsas nitq hissələrindən lüğəvi mənanın daralması, eyni sintaktik vəzifə ifadə etmək yolu ilə təcrid olunur. Modal sözlərin əsas nitq hissələrindən təcrid olunması yolu çox məhsuldar olub, bu gün də davam etməkdədir [14, s. 46].

Ş.Hüseynov modal sözlər istiqamətindəki qrammatikləşməni sözün sintaktik mövqeyinin onun məna yükünə təsiri aspektindən izah etməyə çalışır. Müəllif qrammatikləşmə prosesi gücləndikcə leksik məna zəiflədiyini və nəticədə modal sözün formalaşdığını qeyd edirdi. Tədqiqatçı bu yanaşma tərzinə müvafiq düzü, düzdü, doğrusu, işdir sözlərini nümunə kimi vermişdir. Modal sözlərdə qrammatikləşmə prosesi tarixi əhəmiyyət daşıyır. Biz leksik mənadan tam məhrum olub, yalnız köməkçi söz vəzifəsində qrammatik funksiyanın icraçısına çevrilən morfemləri modal söz hesab edirik. Məsələn: Gərək ki, vaxtilə bu işlərdə özünüz ona imkan yaratmışdınız. Dost arası düz gərəkdir. Birinci nümunədə "gərək" sözü modallıq yaratmağa xidmət edir. Cümlə üzvü vəzifəsində işlənmədiyindən ara söz funksiyası daşıyır. İkinci nümunədəki "gərək" sözü suala cavab verərək xəbər vəzifəsində çıxış etmişdir. Lakin hər iki halda bu morfem leksik mənasını saxlamış və morfoloji mənsubiyyətinə görə isimdir.

R.Rüstəmov türk dilindəki modal sözləri xüsusi leksik-qrammatik kateqoriya hesab edir və buraya aşağıdakı sözləri daxil edir: tabii, sahiden, zaten, işte, belki, galiba, olsun ki, genellikle, meğer, sanasın ki, yukarı, sizce, birincisi və s. [11, s. 164].

F.Zeynalov isə müasir türk dilində aşağıdakı modal sözləri qeyd etmişdir: güya, muhakkak, hakikatan, mutlaka, belki, elbette, olmalı, tutalım, doğrusu, sahiden, şüphesiz, mümkün, ihtimal [14, s. 239].

Modal sözlərin araşdırılması istiqamətində mübahisə doğuran digər bir məqam onların ədatlarla qarışıq salınmasıdır. Modal sözləri ayrıca bir nitq hissəsi kimi səciyyələndirməyən bir sıra dilçilər onu ədatların yarımqrupu kimi təqdim edirlər.

F.Zeynalov modal sözləri müstəqil nitq hissəsi kimi qəbul etməsə də, bu barədə yazır: "Modal sözləri ədat hesab etmək heç bir cəhətdən özünü doğrulda bilməz. Çünki ədatlar söz və cümlədə olan mənanı qüvvətləndirir, lakin modallıq münasibətini əks etdirə bilmir" [14, s. 28]. Müəllif ədatlardan bəhs edərkən onların bir növü kimi modal ədatları qeyd edir. O bura aşağıdakı sözləri daxil edir: qoy, qoyun, heç, görəsən, görək, hətta, hələ, belə, yalnız (Azərb. dili), amma, bile, hatta, hiç, haydı, yalnız, sade, evet, peki, hele, bari, bakalım və s. (Türk dili) [14, s. 180].

Modallığın ifadə vasitələri çoxdur, modal sözlər isə yalnız bu vasitələrdən biridir. Bu mənada, modal sözlərlə ədatları fərqləndirən aşağıdakı xüsusiyyətləri qeyd edə bilərik:

1) Modal sözlər ifadə olunan fikrə modal münasibəti ifadə edir. Ancaq ədatlar sözlərin və cümlələrin mənasını qüvvətləndirir.

2) Ədatlar modal sözlərdən fərqli olaraq, şəkilçiləşməyə meyillidir.

3) Modal sözlər cümlənin məzmunu ilə bağlı olduğundan, onun atılması bəzən cümlənin mənasına xələl gətirir.

4) Modal sözlərin cümlədə sintaktik vəzifəsi ara söz və söz-cümlədir. Ədatlar isə sintaksisdə də "ədat" adlandırılır, lakin söz-cümlə vəzifəsində çıxış edə bilirlər.

Bütün dediklərimizi yekunlaşdıraraq, modal sözlərin tarixən lüğəvi mənalı sözlərdən meydana gəlməsi qənaətinə gəlirik. Modal sözlər dilin müasir durumunda öz leksik mənasını itirmiş və heç bir morfoloji dəyişikliyə məruz qalmamışdır. Modal sözlər quruluşca sözə bərabər olan, obyektiv gerçəkliyin ayrı-ayrı cəhətlərini - zərurilik, ehtimal, mümkünlük və s. planda əks etdirərək, danışanın ona modal münasibətini bildirən söz qrupudur. Dilçiliyimizdə modal sözlər qrammatik mənası və ifadə etdikləri modal çalarlarına görə aşağıdakı məna növlərinə ayrılır:

1. Yəqinlik bildirən modal sözlər: əlbəttə, şübhəsiz, doğrudan da, həqiqətən və s. Bu modal sözlər fikrin gerçəkliyini,doğruluğunu qəti şəkildə təsdiq edir. Məsələn: Əlbəttə, Salmanda yalnız bu keyfiyyətlər olsaydı, şübhəsiz, heç bir qızı Şirzad kimi cəsur, qoçaq bir adamı qoyub onu seçməzdi [6, s. 171]; Həqiqətən, o cavana çox heyfim gəlir [2, s. 114];

Qaçmalı, əlbəttə, uzaqlaşmalı,
Başqa cinayətlərə yaqlaşmalı [4, s. 68];
Qadın,doğrudan,səni çox sevər
Səndən yaaxşısını tapana qədər [10, s. 142].

2. Güman, ehtimal, şübhə bildirənlər: bəlkə, bəlkə də, yəqin, yəqin ki, ehtimal ki, güman ki, deyəsən və s. Bu

modal sözlər hadisəyə münasibətin gümanlı olduğunu bildirir. Məsələn:

İştə, təbiətə bu gün hökm edən bir sükunət
Dünyaları qəhr edərdi bəlkə bulsaydı fürsət [12, s. 70];
Yəqin qəzəblənib şeirimə sultan,

Yerimi göstərmək istəmiş mənə [13, s. 48]; Bəlkə də buna görə bunları keçirə də bilmədim [9, s. 72]; Lakin Rüfət Ədirnəyə gələrsə, yəqin ki, Zöhrəni aparacaq [2, s. 172]; Deyəsən, mənim dediklərimi qulaqardına vurursan?! [7, s. 11]; Ancaq, deyəsən, kənd cavanlarının çoxu qəzəbli idi [2, s. 39]; Ehtimal ki, onlar bu saat mənim əsir aparan maşınımın səsini eşidir [9, s. 89]; Faytonçulara, ya hambalların birinə yanaşıb, yer xahiş edəcəkdi, güman ki,iyirmi-otuz manat versə, bir-iki günlüyə yer tapmaq çətin olmazdı [9, s. 248].

3. Bənzətmə, müqayisə bildirən modal sözlər: elə bil, elə bil ki, sanki, guya ki və s. Bu modal sözlər müqayisə çaları ifadə edir. Məsələn: Sanki dağa dönür sinəmdə ürək [12, s. 255]; Elə bil ay durur bulud dalında, O ellər gözəli, o el yavrusu [12, s. 46]; Ona görə də sanki əli hər şeydən üzülüb,əlacsız qalmışdı [9, s. 82]; Elə bil başından bir qazan dağ su tökdülər [9, s. 236]; Altmış illik ömrü onun elə bil ki, bir anmış [13, s. 68]; Elə bil ki, kiminsə onu oğurlayacağından ehtiyat edirdilər [7, s. 326]; Yolundan çəkilmiş sanki bir xəyal [10, s. 24]; Sanki həp cəhldir bunun elmi [10, s. 17]; Guyabu məsələni burada ağartmasaydın olmazdı [6, s. 468].

4. Nəticə, sıra, ümumiləşdirmə bildirən modal sözlər: ümumiyyətlə, beləliklə, xülasə, deməli, nəhayət və s. Modal sözlərin bu növü söylənilən fikri ümumiləşdirmə, nəticə çıxarma kimi qrammatik mənalarına malikdir. Məsələn: Nəhayət, qız sözünü bitirdi [9, s. 18]; Xülasə, baş elə qarışmışdı ki, Qulamın Leyladan, Leylanın Qulamdan xəbəri olmurdu [9, s. 63]; Nəhayət, əl çəkib mən İstanbulda ikən mənim yanıma gəldi [2, s. 110]; Beləliklə, düz iki ay gözləmişdi [7, s. 341]; Deməli, döyülsə də, ürəyi keçib huşsuz qalsa da, onu yoldan saxlamış, xatadan qurtarmışdı [7, s. 101]; Ümumiyyətlə, indi o hardan və necə başlamağı bilmirdi [6, s. 261].

5. Mənbə və istinad bildirən modal sözlər: məncə, səncə, deyilənə görə, fikrimizcə və s. Modal sözlərin bu qrupu cümlənin ümumi məzmunu ilə bağlı olan modallığı bildirən və söylənilən fikrin mənbəyini göstərən sözlərdir. Məsələn: Deyilənə görə o sakit, düşüncəli və mühakimələrdə aydınlığa meyl edən adam idi [6, s. 272]; Məncə bu Lal Hüseyndən yaxşı adam yoxdur [6, s. 612];

Hər kim bu dünyada gülərsə artıq,
Ondan uzaqlaşar məncə xoşbaxtlıq [10, s. 93];

Deyilənə görə, buranı Qafqaz valisi böyük knyazdan ötəri saxlayırlar [7, s. 345]; Halbuki, məncə, səbətlər bucağında yaşayıb hər çiçəkdən bir şəhd alan bir arı kimi olmaqdan böyük səadət yoxdur [2, s. 198].

Modal sözlərin mənaca bölgüsü şərti xarakter daşıyır. Ona görə ki, bir modal söz fikrin ifadəsindəki roluna müvafiq müxtəlif mənalara xidmət edə bilər. Bu səbəbdən də qeyd etdiyimiz bölgüyə mütləq yanaşmaq doğru hesab olunmur. Dilimizdə həqiqətən, adətən, əsasən, məsələn kimi ara söz vəzifəsində işlənən sözlər vardır. Bu sözlərin ayrılıqda leksik mənası olsa da, "ən" şəkilçisi bu sözlərə qoşulmaqla bu sözlərdəki leksik mənanı bir qədər daraldaraq qrammatikləşməyə meyilləndirir. Bu səbəbdən də bu sözlərə diferensial (yəni dildaxili proseslərin təsiri nəticəsində öz semantikasından uzaqlaşan və morfolofi pozisiyasını dəyişən) modal sözlər deyirik.

Beləliklə, modal sözlər dilimizin qrammatik sistemində əsaslı rol oynayır və modallıq kateqoriyasının təşkilində mühüm vəzifə daşıyır. Modal sözlərin sayı nisbətən az olsa da, bu onun bir nitq hissəsi kimi varlığını şübhə altına almır.

İstifadə edilmiş ədəbiyyat

1. Azərbaycan dilinin qrammatikası, I c. Bakı, Azərb. SSR EA, 1960, 336 s.
2. Cabbarlı C. Əsərləri. Dörd cilddə. II c. Bakı: Şərq-Qərb, 2005, 360 s.
3. Cəfərov C., Abdullayev N. Müasir Azərbaycan dilinin morfologiyası. Bakı: ADPU, 2004, 176 s.
4. Hüseyn C. Əsərləri. Beş cilddə. III c. Bakı: Lider, 2005, 304 s.
5. Hüseynov Ş. Azərbaycan dilində qrammatik vahidlərin inkişafı. Bakı: Nurlan, 2003, 194 s.
6. İbrahimov M. Böyük dayaq romanı. http://beylagan.cls.az/front/files/libraries/421/books/781037795.pdf
7. İsmayıl Ş. Seçilmiş əsərləri. İki cilddə. II c. Bakı: Şərq-Qərb, 2005, 204 s.
8. Kazımov Q. Seçilmiş əsərləri. IX cild. Bakı: Nurlan, 2010
9. Mir Cəlal. Seçilmiş əsərləri. Bakı: Şərq-Qərb, 2005, 384 s.
10. Nizami G. Leyli və Məcnun. Bakı, Lider, 2004, 288 s.
11. Rüstəmov R. Müasir türk dillərində köməkçi nitq hissələri. Bakı: BDU, 1996, 220 s.
12. Səməd V. Seçilmiş əsərləri. Beş cilddə. I cild. Bakı: Şərq-Qərb, 2005, 264 s.
13. Vahabzadə B. Seçilmiş əsərləri. İki cilddə. II cild (Poemalar). Bakı: Öndər, 2004, 320 s.
14. Zeynalov F. Müasir türk dillərində köməkçi nitq hissələri. Bakı: Maarif, 1971, 312 s.

Açar sözlər: modal sözlər, köməkçi nitq hissəsi, üslubi xüsusiyyət, sintaktik vəzifə, modallıq
Key words: modal words, auxiliary part of speech, stylistic feature, syntactic task, modality
Ключевые слова: модальные слова, вспомогательная часть речи, стилистический признак, синтаксическая задача, модальность

Xülasə

Məqalədə modal sözlərin xarakterik xüsusiyyətlərindən danışılır. Modal sözlər danışanın söylədiyi fikrə, obyektiv reallığa münasibət bildirən sözlərdir. Ayrı-ayrı dilçilərin bu barədə fikirlərinə münasibət bildirilir. Göstərilir ki, modal sözlər danışanın söylədiyi fikrə, obyektiv reallığa münasibət bildirən sözlərdir. Modal sözlər sintaksisdə ara söz funksiyasında işlənir, cümlənin məzmunu ilə həmahəng olur və modallığın yaranmasına xidmət göstərir. Modal

sözlər tarixən lüğəvi mənalı sözlərdən yaranıb. Modal sözlər dilin müasir durumunda öz leksik mənasını itirmiş və heç bir morfoloji dəyişikliyə məruz qalmamışdır. Modal sözlər quruluşca sözə bərabər olan, obyektiv gerçəkliyin ayrı-ayrı cəhətlərini əks etdirərək, danışanın ona modal münasibətini bildirən söz qrupudur. Dilçilikdə modal sözlər qrammatik mənası və ifadə etdikləri modal çalarlarına görə qruplaşdırılır. Modal sözlər dilin qrammatik sistemində əsaslı rol oynayır və modallıq kateqoriyasının təşkilində mühüm vəzifə daşıyır. Modal sözlərin sayı nisbətən az olsa da, bu onun bir nitq hissəsi kimi varlığını şübhə altına almır.

Characterıstıc features of modal words

Summary

The article talks about the characteristic features of modal words. Modal words are words that relate to the speaker's opinion and objective reality. Opinions of individual linguists on this matter are reported. It is shown that modal words are words that refer to the speaker's opinion and objective reality. Modal words are used in the function of interjections in the syntax, they harmonize with the content of the sentence and serve to create modality. Modal words are historically derived from words with lexical meaning. Modal words have lost their lexical meaning in the modern state of the language and have not undergone any morphological changes. Modal words are a group of words that are equivalent to a word in structure, reflect different aspects of objective reality, and express the speaker's modal attitude towards it. In linguistics, modal words are grouped according to their grammatical meaning and the modal shades they express. Modal words play a fundamental role in the grammatical system of the language and play an important role in the organization of the category of modality. Although the number of modal words is relatively small, this does not call into question its existence as a part of speech.

Характеристики модальных слов

Резюме

В статье рассказывается о характерных особенностях модальных слов. Модальные слова – это слова, которые относятся к мнению говорящего и к объективной реальности. Приводятся мнения отдельных лингвистов по этому вопросу. Показано, что модальные слова – это слова, которые относятся к мнению говорящего и к объективной реальности. Модальные слова используются в синтаксической функции междометий, гармонируют с содержанием предложения и служат для создания модальности. Модальные слова исторически произошли от слов с лексическим значением. Модальные слова в современном состоянии языка утратили свое лексическое значение и не претерпели никаких морфологических изменений. Модальные слова - это группа слов, эквивалентных слову по структуре, отражающих разные стороны объективной реальности и выражающих модальное отношение к ней говорящего. В лингвистике модальные слова группируются в соответствии с их грамматическим значением и модальными оттенками, которые они выражают. Модальные слова играют фундаментальную роль в грамматической системе языка и играют важную роль в организации категории модальности. Хотя количество модальных слов относительно невелико, это не ставит под сомнение их существование как части речи.

RƏYÇİ: dos. E.Vəliyeva